# Şərqi Zəngəzurda quruculuq işləri Prezidentin tam nəzarətindədir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Kəlbəcər və Laçın rayonlarına səfər ediblər.

Dövlət başçısı və birinci xanım "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyasının açılışında iştirak ediblər, "İstisu" Mineral Sudoldurma Zavodunun tikintisi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər barədə məlumat verilib.

Dövlət başçısı "Azərenerji" ASC-nin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zar kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev Laçın rayonunda "Azərenerji" ASC-nin "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarının açılışlarında iştirak edib.

Dövlət başçısı və birinci xanım Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində həyata keçirilən işlərlə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlqoyma mərasimində, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olub, "Hoçazfilm" Yaradıcılıq Studiyasının çəkiliş pavilyonunun, Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra və Həkəri Balıq Təsərrüfatının açılışlarında iştirak ediblər.

→ 2-8